**Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə adların verilməsi haqqında**

**Q A Y D A L A R**

1. Bu Qaydalar Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 13.2-ci maddəsinə və "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 noyabr tarixli 594 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən (kiçik həcmli gəmilər və hərbi gəmilər istisna olmaqla) gəmilərə ad verilməsi və ya dəyişdirilməsi qaydasını müəyyən edir.

2. Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində qeydiyyata alınan gəminin öz adı olmalıdır.

3. Gəmiyə ad verilməsi gəminin mülkiyyətçisi tərəfindən Dövlət Dəniz Administrasiyası ilə razılaşdırılmaqla həyata keçirilir.

4. İctimai və digər təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən gəmilərə adların verilməsi barədə təkliflər gəmi mülkiyyətçisinə təqdim olunur.

5. Gəminin adı Azərbaycan və İngilis dillərində latın qrafikası ilə yazılır və 3 (üç) sözdən artıq olmamalıdır.

6. Gəmiyə ad verilməsi zamanı Azərbaycan Respublikasının qanunvericiliyinə və milli mənafelərə zidd olan sözlərin istifadəsi qadağandır.

7. Gəmiyə adın seçilməsi zamanı aşağıda göstərilənlər nəzərə alınmalıdır:

- adın ictimai və mənəvi tələblərə uyğunluğu;
- adın asan və yadda qalan olması.

8. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən eyni tipli gəmilərə eyni adların verilməsi qadağandır.

9. Gəminin mülkiyyətçisi dəyişdikdə gəminin adının dəyişdirilməsinə icazə verilir.

10. Gəmiyə mülkiyyət hüququnun məhdudlaşdırılması gəmi reyestrlərindən birində qeydiyyata alındıqda hüquq sahibinin razılığı olmadan gəminin adının dəyişdirilməsinə yol verilmir.

11. Gəmiyə verilən adın rəsmiləşdirilməsi məqsədilə gəminin mülkiyyətçisi tərəfindən aşağıdakılar Dövlət Dəniz Administrasiyasına təqdim olunmalıdır:

11.1. gəminin adının rəsmiləşdirilməsi ilə əlaqədar müraciət məktubu;

11.2. gəmiyə müvafiq adın verilməsi ictimai və digər təşkilatlar tərəfindən təklif edildikdə təklifin mahiyyəti və əsaslandırılması;

11.3. gəminin adı dəyişdirilərkən, dəyişmə səbəbləri barədə məlumat;

11.4. istismarda olan gəmiyə verilmiş "Mülkiyyət hüququ haqqında şəhadətnamə"nin surəti;

11.5. yeni inşa edilən gəmilər üçün – gəminin inşasına dair müqavilənin surəti;

11.6. təklif olunan şəxsi adların sahibləri barədə məlumat;

11.7. şəxsi ad verildiyi halda həmin şəxsin yaxud onun hüquqi varislərinin razılıq məktubu.

12. Gəmiyə adın verilməsi ilə əlaqədar bu qaydalarda nəzərdə tutulmuş sənədlər təqdim edildiyi tarixdən 30 gün müddətində müraciətə baxılmasının nəticəsi barədə gəmi mülkiyyətçisinə məlumat verilməlidir.

13. Azərbaycan Respublikasının Dövlət Gəmi Reyestrinə gəminin adı barədə müvafiq qeydlər daxil olunduğu tarix gəmiyə adın verilməsi tarixi hesab olunur.

14. Bu Qaydalar Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.